# Qarabağın erməni sakinləri ilə təmaslar sülhə xidmət edir

## İkinci görüşün Bakıda keçirilməsi təklifi reinteqrasiyanın uğurlu icrası üçün yaxşı fürsətdir

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası reinteqrasiya ilə bağlı təmasların davam etdirilməsi, habelə Qarabağda infrastruktur layihələrinin reallaşdırılması məsələlərinin müzakirəsi üçün Qarabağın erməni ictimaiyyətinin nümayəndələrini ikinci görüşə dəvət edib.

Xatırladaq ki, Azərbaycan ərazilərində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı kontingentinin qərargahında Qarabağda yaşayan erməni sakinlərin təmsilçiləri ilə birinci görüş martın 1-də baş tutub.



Bu, Prezident İlham Əliyevin Qarabağda yaşayan ermənilərlə bağlı müxtəlif beynəlxalq platformalarda səsləndirdiyi fikirlərinin nəticə verdiyini sübut edir. Dövlət başçısı Vətən müharibəsindən sonra Qarabağın erməni əhalisinin Azərbaycan vətəndaşları olduğunu və onları təmsil edən icmanın nümayəndələri ilə praktiki təmaslara başlamağa hazır olduğumuzu dəfələrlə qeyd edib. Erməni sakinlərlə ikinci görüşün planlaşdırılması təsdiq edir ki, bizim ərazilərimizdə yaşayan sadə ermənilərin cəmiyyətimizə reinteqrasiyasına artıq başlanılıb. Ona görə də bu təmaslar diplomatiyamızın növbəti uğuru kimi dəyərləndirilməlidir. İkinci görüşün xüsusilə paytaxt Bakıda keçirilməsinin təklif edilməsi reinteqrasiyanın uğurlu icrası üçün yaxşı fürsətdir.

### Belə təmaslar xalqlararası və dövlətlərarası münasibətləri yaxşılaşdırır

Milli Məclisin deputatı Asim Mollazadə qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycan dövləti öz ərazilərində yaşayan sadə ermənilərin cəmiyyətimizə reinteqrasiya prosesinə başlanılmasının vacibliyi barədə dəfələrlə bildirib, bu istiqamətdə təkliflər təqdim edib: "Hansısa revanşizm əməlləri, yeni müharibələr barədə düşünməkdənsə, onlar Azərbaycanın imkanlarından yararlanmalı, yaxşı mənada istifadə etməlidirlər. Həmin ermənilərin reinteqrasiyası ilə bağlı Azərbaycan artıq bir neçə addım atıb və bu fəaliyyətini davam etdirir: birinci dəfə Xocalıda görüş keçirilib, indi isə nümayəndələr Bakıda ikinci görüşə dəvət olunub. Fikrimcə, bu, mühüm addım kimi qiymətləndirilməlidir".

Deputat qeyd edib ki, Qarabağın erməni sakinləri ilə təmasların yaradılması dövlət başçısının qətiyyətli çıxışlarının məntiqi nəticəsidir. Prezident İlham Əliyev ən müxtəlif platformalarda vurğulayıb ki, Qarabağda yaşayan ermənilər bizim vətəndaşlarımızdır. Reinteqrasiyanın əhəmiyyətini vurğulayan ölkə rəhbəri bildirib ki, "Biz bunu etməyə hazırıq, lakin erməni icmasının Qarabağda doğulmuş və bütün ömrü boyu orada yaşamış nümayəndələri ilə, Qarabağda Rusiyadan rəhbər mövqe tutmaq üçün ixrac edilmiş (exported) şəxslə deyil". Belə əhəmiyyətli çıxışların nəticəsində isə rusiyalı oliqarx Ruben Vardanyan ifşa olunub və proseslərdən uzaqlaşdırılıb.

A.Mollazadənin sözlərinə görə, Azərbaycan vətəndaşlığını qəbul edəcək ermənilərin təhlükəsizliyi təmin olunacaq: "Onlar bizim suveren ərazilərimizdə tam təhlükəsiz yaşaya biləcək, digər vətəndaşlarımızla eyni hüquqlara malik olacaqlar. Reinteqrasiya, həm də təkcə xalqlararası deyil, eyni zamanda dövlətlərarası münasibətlərin yaxşılaşmasına da səbəb olacaq. Bu baxımdan separatizmin güclənməsində xidmətləri və revanşizm niyyətləri olmayan sadə ermənilərlə Azərbaycanın səlahiyyətli nümayəndələrinin görüşməsi ciddi əhəmiyyət kəsb edir. Bu, ölkəmizin yerinə yetirdiyi növbəti sülh missiyasıdır".

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***